# “Bir millət, iki dövlət” forumu



**Naxçıvanda Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi, Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsi və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Sarayında “Bir millət, iki dövlət” forumu keçirilib.**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyəti yaradılmasının 100 illiyinə həsr olunmuş məclisdə hər iki tarixi hadisənin fonunda ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlığın dünyada misilsiz bir örnək olduğunu əks etdirən filmlər nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli forumu açaıq elan edərək bildirib ki, milli liderlərimiz Heydər Əliyevin və Mustafa Kamal Atatürkün müəyyənləşdirdiyi, bu gün isə hər iki ölkə prezidentlərinin iradəsi ilə davam və inkişaf etdirilən Azərbaycan – Türkiyə qardaşlığı forumun əsas mövzusudur. Böyük Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir” kəlamını “Bir millət, iki dövlət” fəlsəfəsi ilə yeni mərhələyə yüksəldən Ümummilli lider Heydər Əliyev xalqlarımızın milli-mənəvi dünyasının bir-biri ilə sıx bağlılığını Azərbaycan – Türkiyə əlaqələrinin inkişafında əsas amil kimi kimi dəyərləndirib.

Türkiyə Respublikasının Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri Aygün Attar, Milli Məclis sədrinin müavini Adil Əliyev, “TÜRKSOY”un baş katibinin köməkçisi Seyid Yusif, Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri, professor Hicran Hüseynova, İğdır valisi Ərcan Turan çıxışlarında bildiriblər ki, hər iki yubileylə bağlı birgə təntənələr, söylənən təbriklər, ifadə edilən arzular xalqlarımızın məslək və hədəflərinin ortaqlığını bir daha nümayiş etdirir. Qeyd edilib ki, tarixi sınaqlardan çıxmış, dünyada bənzərim olmayan münasibətlərin yüksək səviyyədə davam etdirilməsi ölkələrimizin daha da qüdrətlənməsinə, xalqlarımızın ortaq maraqlarına xidmət edir.

Foruma onlayn qoşulan Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi, professor Fəxrəddin Altun dövlət başçılarının Naxçıvan görüşündə nəqliyyat və enerji sahələrində əldə olunan yeni razılaşmaların Zəngəzur dəhlizi ilə daha da inkişaf edəcək münasibətlərimizdə yeni meydan açacağını diqqətə çatdırıb.

Forum Türkiyənin Girəsun Universitetinin beynəlxalq əlaqələr şöbəsinin müdiri, professor Yalçın Sarıkayanın moderatorluğu ilə “Zəngəzur dəhlizi və bölgəyə təsiri” adlı panel müzakirələri ilə davam edib.

***XQ***

Xalq qəzeti .- 2023.- 27 oktyabr, № 235.- S.5.